


**Məcidov Aqil Aydın oğlu**

Aqil Aydın oğlu Məcidov 1998-ci il aprelin 3-də Tovuz şəhərində anadan olub. 2005-2016-cı illərdə A.S.Puşkin adına Tovuz şəhər tam orta məktəbdə təhsil alıb. 2016-2020-ci illərdə isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində ali hərbi təhsil alıb.

Azərbaycan Ordusunun leytenantı olan Aqil Məcidov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Aqil Məcidov sentyabrın 28-də Füzuli döyüşləri zamanı şəhid olub. Tovuz şəhərində dəfn olunub.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamları ilə leytenant Məcidov Aqil Aydın oğlu “Vətən uğrunda”, “Füzulinin azad olunmasına görə” medalları ilə təltif edilib.